Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №2, 2021, **s. 57-61**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №2, 2021, **с. 57-61**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №2, 2021, **pp. 57-61**

UOT 78.01

Rəşadət Ədalət oğlu Fərzəliyev
Magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
E-mail: rashadatfarzaliyev@gmail.com

MUSİQİ FƏNNİNİN ƏSAS TƏDRİS PRİNSİPLƏRİ

Açar sözlər: *musiqi, tədris, təlim, pedaqoji proses, qabiliyyət, musiqi müəllimi*

Musiqi mədəniyyətimizin öyrənilməsi, gənc nəslin estetik tərbiyəsi, intellektinin inkişafında və istedadlı tələbələrin aşkara çıxarılmasında musiqi təliminin əhəmiyyəti böyükdür. Bu mənada ümumtəhsil məktəblərində tədris olunan fənlər sırasında "Musiqi" fənni xüsusi əhəmiyyət kəsb edir. Təqdim olunan məqalədə də musiqi fənninin əsas tədris prinsiplrindən söhbət açılır, "Musiqi" fənninin tədrisində musiqi sənətinin tədrisi və tərbiyəvi imkanları vasitəsilə məktəblilərin hərtərəfli inkişaf etmiş şəxsiyyət kimi formalaşdırılması göstərilir.

Р.А.Фарзалиев

ОСНОВНЫЕ ПРИНЦИПЫ ПРЕПОДАВАНИЯ МУЗЫКАЛЬНОГО ПРЕДМЕТА

Ключевые слова: *музыка, преподавание, обучение, педагогический процесс, способности, учитель музыки*

В изучении нашей музыкальной культуры, в эстетическом воспитании подрастающего поколения, в развитии его интеллекта, и в раскрытии талантливых учащихся значение музыкального воспитания огромно. В этом смысле предмет "Музыка" среди предметов, преподаваемых в общеобразовательных школах, имеет особое значение. В представленной статье также рассказывается об основных принципах преподавания предмета "музыка", показано формирование школьников как всесторонне развитых личностей через обучение и воспитательные возможности музыкального искусства в обучении предмету "музыка".

R.A.Farzaliyev

BASIC PRINCIPLES OF MUSIC EDUCATION

Key words: *music, teaching, training, pedagogical process, abilities, music teacher*

The importance of music education in the study of our music culture, aesthetic education of the younger generation, the development of music and the discovery of talented students is great. In this sense, the subject "Music" is of special importance among the subjects taught in secondary schools. The presented article also talks about the basic principles of music education, the formation of schoolchildren as a thoroughly developed personality through the teaching and educational opportunities of music art in the teaching of music.

Qədim köklərə malik musiqi mədəniyyətimizin öyrənilməsi, gənc nəslin intellektinin inkişafında və istedadlı tələbələrin aşkara çıxarılmasında musiqi təliminin əhəmiyyəti böyükdür. Bu mənada ümumtəhsil məktəblərində tədris olunan fənlər sırasında "Musiqi" fənni xüsusi əhəmiyyət kəsb edir. Ümumtəhsil məktəblərində musiqi fənninin tədrisi prosesində şagirdlərin musiqinin forma, janr, üslub və ifadə vasitələri, xalqımızın musiqi tariximiz haqqında ümumi məlumatlarla tanış olmaları, yaradıcı fəaliyyətlə bağlı (mahnı oxumaq, rəqs etmək və s.) ən sadə və ilkin bacarıqlara yiyələnmələri təmin edilir. "Musiqi" fənninin tədrisində əsas məqsəd musiqi sənətinin tədrisi və tərbiyəvi imkanları vasitəsilə məktəblilərin hərtərəfli inkişaf etmiş şəxsiyyət kimi formalaşdırılmasıdır.

Pedaqoji təlimdə də musiqi vacib amillərindəndir. Hər bir şəxsin öz yaradıcılıq imkanlarını üzə çıxarmasında, cəmiyyət üçün yararlı mütəxəssis olmasında əlbəttə ki, musiqinin rolu böyükdür. Orta məktəblərdə şagirdlərə musiqi təlimi verilməsi, onların mədəni həyatına, eləcə də estetik zövqlərinin formalaşmasına böyük təsir göstərir" [8, s. 4].

Musiqi dərslərində şagirdlərin musiqi mədəniyyəti inkişaf edir, yaradıcılıq qabiliyyəti formalaşır, musiqini başa düşür və qiymətləndirə bilirlər. Musiqinin tədrisi xüsusi metodika ilə keçilir. Şagirdlərə musiqi nəzəriyyəsi, görkəmli musiqiçilər və bəstəkarlar haqqında məlumat verilir. Bu məqsədlə məktəblərdə şagirdlərin musiqi sənəti vasitəsilə inkişaf etdiriməsi əsas vəzifə kimi qarşıya qoyulur.

Musiqi fənni üzrə təhsil proqramı (kurikulumu) ümumtəhsil məktəblərində musiqi təlimi və tərbiyəsinin, musiqi mədəniyyətinin formalaşdırılması və inkişaf etdirilməsi məqsədlərinin reallaşdırılmasına xidmət etməklə musiqi fənni üzrə ümumtəlim nəticələrinə nail olmaq istiqamətində

fəaliyyətləri əhatə edən konseptual xarakterli sənəddir. Bu təhsil proqramında (kurikulumda) şagirdlərin cəmiyyətdə incəsənətin rolunu dərk etmələri, onların bədii zövqünün, musiqi üzrə bacarıq və vərdişlərinin inkişafı, fəal dinləyici kimi yetişmələri, mənəvi aləminin zənginləşdirilməsi nəzərdə tutulur [9].

Musiqi fənni üzrə təhsil proqramı (kurikulumu) dərsliklərin, fənnin tədrisi metodikasının hazırlanması, tədris materiallarının planlaşdırılması və müəllim hazırlığının təkmilləşdirilməsi üçün hazırlanacaq təlimatların, metodik vəsaitlərin əsasını təşkil edir.

Musiqinin tədrisi üç istiqamətə bölünür: 1) praktiki qabiliyyət-vərdişlər; 2) kommunikasiya, şərh; 3) musiqi əsərlərinin kontekstdə dərk edilməsi. Tədris bütün istiqamətlər çərçivəsində paralel aparılır və bir-biri ilə sıx qarşılıqlı əlaqədədir.

Praktiki qabiliyyət-vərdişlər. Bu istiqamət çərçivələrində şagirdlərə praktiki vərdişlər aşılanır və formalaşdırılır ki, bu da onların yaradıcılıq qabiliyyətlərinin üzə çıxmasına və hərəkətə gəlməsinə xidmət edir. Şagirdlər dinlədikləri musiqi əsərlərinin emosional-növ məzmununu, yaxud da öz aləmində qəbul etdikləri musiqi təəssüratlarını əks etdirirlər. Bunun üçün onlar musiqi dərsində tanış olduqları təsvirin uyğun formalarını və təsviri üsullarını seçir və bunlardan istifadə edirlər. Bundan başqa, musiqi dərslərində şagirdlər planlaşdırma, təşkil etmə, qrupda işləmək vərdişlərinə yiyələnirlər [10].

Ümumtəhsil, orta ixtisas və ali məktəblərdə çalışan müəllimlər musiqini anlama, hiss etmə, duyma qabiliyyətlərini inkişaf etdirmək, eləcə də pedaqoji təlim qaydalarını bilməlidirlər.

Musiqi müəllimi xüsusi hazırlıq keçmiş və pedaqoji fəaliyyətlə peşəkarcasına məşğul olan insandır. O, pedaqoji biliklərə peşəkarcasına yiyələnməyi bacaran və bu işdə böyük məsuliyyət daşıyan şəxsdir.

Musiqi müəlliminin peşə fəaliyyəti problemləri bu gün pedaqogika elminin qarşısında duran ən mühüm məsələlərdən biridir. Məktəblilərimizin mənəvi mədəniyyəti və tərbiyəsi müasir musiqi müəlliminin pedaqoji savadı, biliyi və peşəkarlığından əhəmiyyətli dərəcədə asılıdır. "Musiqi müəllimi gəaliyyətinin başlıca istiqamətlərini şagirdlərin tərbiyəsi, təlimi, təşkili, inkişafı və bədii zövqlərinin formalaşdırılması təşkil edir. Təlim prosesinin idarə olunması, hər şeydən əvvəl şagirdlərin hazırlıq səviyyəsinə, imkanlarına, tərbiyəsinə, inkişafına əsaslanır " [5, s. 152].

Müasir musiqi müəlliminin işi özünün çoxplanlığı ilə səciyyələnir: uşaqlara musiqi, onun forma və janrları haqqında izahat vermək; mahnıların öyrənilməsi və ifası üzrə dərsi yüksək profesioanl səviyyədə aparmaq; alətdə müşayiət olunan mahnını, proqramda dinləmək üçün tövsiyyə olunan əsərləri səlist ifa etmək; nəzəri bilikləri anlaşıqlı və maraqlı formada mənimsətmək; müxtəlif tipli sinifdənkənar işlər aparmaq. Bütün bunlar musiqi müəlliminin qarşısında duran əsas vəzifələrdəndir.

Müəllimin bilik əldə etməsində və müxtəlif fəaliyyət növlərinə yiyiələnməsində sistemliyin böyük əhəmiyyəti vardır. O, öz işində musiqi pedaqoji elmin qabaqcıl ideyalarına əsaslanmalı, musiqi fəaliyyətinin hər sahəsi üzrə müstəqil idraki tələbat yaranmasını hiss etməli, bu sahədə yazılmış kitablardan bəhrələnməlidir. Burada müxtəlif nəzəri ümumiləşdirmələr əhəmiyyətli rol oynayır və təcrübə ilə bağlı pedaqoji vəzifələrin həlli prinsiplərini mənimsəmək mkanı yaradır. Müəllimin yiyələndiyi nəzəri ümumiləşdirmələr və metodik üsullar onun işinin keyfiyyətinə müsbət təsir göstərir. Musiqi müəllimi informasiya vermə, təşkil etmə, qiymətləndirmə, nəzarətetmə funksiyalarını yerinə yetirir [5, s. 154].

Bu gün bir sıra yeni pedaqoji təlim texnologiyaları işlənib hazırlanmışdır ki, bunlar bir-birindən müxtəlif məqsəd, məzmun və metodik xüsusiyyətləri ilə fərqlənir. Təhsilin məzmunu yeni prosessual bacarıqlarla, qabiliyyətlərin inkişafı, informasiyanın ötürülməsi, problemlərin yaradıcı həlli və s. ilə zənginləşir. Bütün bunlar gənc musiqiçi müəllimlərin tədris prosesində müsbət nəticə əldə etməsinə kömək edəcəkdir.

Respublikanın ümumtəhsil məktəblərində musiqi fənni üzrə nümunəvi təcrübi dərs aparılmasına baxmayaraq biz təkcə öz təcrübəmizdən deyil, həmçinin Avropa məktəblərinin təcrübəsindən də bəhrələnməliyik. Azərbaycanda YUNESKO xəttilə keçirilən "Fəal Təlim Monitorinq, Trening Kursları"nın məqsədi fəal təlim ənənəsi ilə ənənəvi təlim arasındakı mənfi və müsbət cəhətləri araşdırmaqdan ibarət idi. Bu baxımdan fəal təlim ənənəvi təlimdən fərqli olaraq idrakı arxa plana, şüuru isə ön plana keçirir. Dərslərdə müxtəlif suallar nəticəsində şagirdlər tərəfindən yaradılan problem həll edilməklə ümumi nəticəyə gəlinir və sonda onlar bir-birini qiymətləndirirlər. Avropada isə musiqi tədrisi sahəsində əldə edilən müsbət nəticə öz aktuallığını bu günə kimi saxlayır. Musiqi tədrisi sahəsində Bolqarıstan, Macarıstan, Almaniya və s. ölkələrin müsbət təcrübəsi həmin ölkələrin milli mədəniyyəti, məişəti və səciyyəvi cəhətləri ilə bağlıdır.

Musiqi tərbiyəsi metodikasının təşkili üçün müxtəlif ölkələrin nümayəndələri ilə əlaqə yaradılmış, təcrübə mübadiləsi aparılmış, konfranslar keçirilmiş və bu sahədə Beynəlxalq Təşkilat da yaradılmışdır.

Bizim fikrimizcə Respublikamızda musiqinin tədrisində dünya ölkələrinin müsbət təcrübəsindən yararlanılsa və milli musiqimizə əsaslanaraq istifadə edilsə, bu, musiqi təhsili və tədris sahəsində yeniliklərə yol açar.

ƏDƏBİYYAT

1. İlyasov M.İ. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri Monoqrafiya. B.: Elm və təhsil, 2018, 208 s.
2. Quliyev S. Musiqi inkişafı və musiqi tərbiyəsi. APİ, 1984

3. Qədimova J.H. Musiqinin tədrisi metodikası. B.: Elm, 2007
4. Qədimova J.H. Musiqi pedaqogikası tarixilik və müasirlik. B.: 2012
5. Məmmədova İ.Ə. Musiqi pedaqogikası. Dərs vəsaiti. B.: ABU, 2009, 214 s.
6. Rəcəbov O. Ümumtəhsil məktəblərində musiqi tədrisi və tərbiyəsi metodikası. B.: Mütərcim, 2010
7. Tağıyev B. "Təhsil prosesində pedaqoji texnologiyalar" //Pedaqoji tədqiqatlar (Elmi məqalələr məcmüəsi), №4 (13), 2001, s.143
8. Yaqut Salamqızı. "Gənc nəslin tərbiyəsində musiqinin rolu". "Azərbaycan müəllimi" qəzeti, 8 mart, 2913, №9
9. https://www.arti.edu.az/noduploa d/editor/files/15_%20Musiqi-kurikulum.pdf
10. https://azkurs.org/xlviii-musiqi-uzre-fenn-proqram-umumi-hisse-a-giris.html

Məqalənin redaksiyaya daxil olma tarixi: 18.08.2021
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 23.08.2021
Məqalənin çapa qəbul olunma tarixi: 08.10.2021
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
pedaqogika üzrə fəlsəfə doktoru Aynur Hüseynova
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.